# III sinif şagirdi beynəlxalq musiqi festivalının ikincisidir

Mülayim, təbiətcə sakit olan Xədicə Abdullayeva 2007-ci ildə Bakıda anadan olub. Paytaxtdakı 27 nömrəli tam orta məktəbin 3-cü sinfində təhsil alır. Sinif nümayəndəsi olan Xədicə dərs əlaçısıdır. Məktəbdə keçirilən tədbirlərdə daim fəal iştirak edir. Şəkli məktəbin şərəf lövhəsini bəzəyir. Qeyri-adi istedad sahibi olan Xədicə musiqiyə böyük həvəs göstərir. Hazırda o, R. Hacıyev adına 15 nömrəli musiqi məktəbinin II sinfində fortepiano şöbəsində əməkdar mədəniyyət işçisi Tamilla Məmmədzadənin sinfində oxuyur. Xədicə üçün 2016-cı il uğurlu olub. O, İspaniyanın Lioret



De Mar şəhərində keçirilən "Gran Fiesta" musiqi festivalında ölkəmizi təmsil edərək II dərəcəli diplomla mükafatlandırılıb və laureat adını qazanıb.

Xədicə bizimlə təəssüratlarını bölüşərək söylədi ki, həmin müsabiqəyə qatılmaq təklifi alanda çox sevinib. Bu, onu qələbəyə daha da ruhlandırıb və nəticədə gərgin əməyi hədər getməyib. İstedadlı yeniyetmə musiqi ilə bağlı çoxlu ədəbiyyatlar oxuyur. Klassik ədəbiyyata həvəsi daha böyükdür. – Nə qədər çox oxusam, bir o qədər çox bilərəm,-deyir. Xədicənin anası Rəna xanım həkim olmasına baxmayaraq musiqi həvəskarıdır və qızı ilə mütəmadi olaraq məşğul olur.

Şübhəsiz, bu da onun yenicə qədəm qoyduğu musiqi sahəsində gələcəkdə qazanacağı daha böyük uğurlara stimuldur.